**“Pasportlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası 2018-ci il 13 fevral tarixli 986-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

“Pasportlar haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994,   18, maddə 243; 1995,   14, maddə 237; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997,   5, maddə 385,   6, maddə 493; 1998,   2, maddə 70; 2000,   12, maddə 835; 2001,   3, maddə 143,   6, maddə 378,   11, maddə 674; 2002,   1, maddə 4,   8, maddə 463; 2004,   7, maddə 505; 2005,   3, maddə 152,   10, maddə 874; 2006,   1, maddə 3,   2, maddə 64,   3, maddə 219,   4, maddə 319,   11, maddə 933,   12, maddələr 1006, 1017, 1029; 2007,   7, maddə 712,   8, maddə 753,   11, maddə 1053; 2008,   3, maddə 158,   8, maddələr 699, 701,   10, maddə 886; 2009,   7, maddə 519; 2010,   3, maddə 166,   4, maddə 276,   11, maddə 935; 2011,   4, maddə 270,   6, maddə 474,   7, maddə 580; 2012,   7, maddə 647; 2013,   5, maddə 465,   6, maddə 619,   7, maddə 793; 2014,   4, maddə 323,   11, maddə 1335; 2015,   6, maddə 688; 2017,   6, maddələr 1042, 1045,   12 (I kitab), maddə 2263; 2018,   11, maddə 2216; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1444-VQD nömrəli Qanunu) 6-cı maddəsinin birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci bəndə “hakimlərinə,” sözündən sonra “İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Azərbaycan Respublikasından seçilmiş hakimə,” sözləri əlavə edilsin.

2. 3-cü bəndə “Konstitusiya Məhkəməsi sədrinin,” sözlərindən sonra “İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Azərbaycan Respublikasından seçilmiş hakimin,” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 mart 2019-cu il
1529-VQD